

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 244 (23.155)

20 dekabr 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycanla Həştərxan arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, bu gün əməkdaşlığın genişləndiyini və birgə layihələrin həyata keçirildiyini vurğulayıb və bütün bunların Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirib.

Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov bunun Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafı işinə xidmət etdiyini bildirib.

Sonra Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın inkişafına və dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi böyük töhfəyə görə Prezident İlham Əliyevə “Həştərxan vilayəti qarşısında xidmətlərinə görə” ordenini təqdim edib.



## 2018-ci ilin yanvar-noyabr aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2018-ci ilin yanvar-noyabr aylarında 2 milyard 421 milyon 714 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz artaraq 5330 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 899 milyon 617 min manat dəyərində məhsul istehsal edilmişdir. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2018-ci ilin yanvar-noyabr aylarında muxtar respublikada bütün



maliyyə mənbələrindən əsas kapitala 927 milyon 993 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 861 milyon 631 min manatı və ya 92,8 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Bəhs olunan dövrdə 411 milyon 443 min 800 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 23241 tonu, süd istehsalı isə 80608 tonu ötmüşdür. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 4,5 faiz, süd istehsalı isə 1,4 faiz artmışdır.

* * *

2018-ci ilin yanvar-noyabr aylarında informasiya və rabitə xidmətlərinin dəyəri 48 milyon 420 min manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2,9 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 39 milyon 837 min 300 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,8 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2018-ci ilin yanvar-noyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 47 milyon 784 min 300 manat məbləğində kreditlər verilmişdir. Bu da bir il öncəki göstəricidən 1,7 dəfə çoxdur. Verilmiş kreditlərin 5 milyon 251 min 800 manatı və yaxud 11 faizi qısamüddətli, 42 milyon 532 min 500 manatı və yaxud 89 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə



məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 dekabr 2018-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 79943-ə çatmışdır. Bunun da 70542-si və ya 88,2 faizi aktiv hesablardır. 2018-ci ilin yanvar-noyabr aylarında açılmış 17747 bank hesabının 17611-i aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 dekabr 2018-ci il tarixə 1272-yə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2018-ci ilin yanvar-noyabr aylarında 435 milyon 597 min 600 ABŞ dolları dəyərində xarici



ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 383 milyon 314 min 400 ABŞ dolları təşkil etmiş, 331 milyon 31 min 200 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2018-ci ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 430 manata çatmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,2 faiz çoxdur.

* * *



1 noyabr 2018-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3,3 min nəfər artaraq 455 min 592 nəfər olmuşdur.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

## Keyfiyyətə nəzarət olunur

Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi 2018-ci ilin noyabr ayında yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işini, o cümlədən təsərrüfat subyektlərinin istehsal-xidmət şəraitinin standartların tələblərinə uyğunluğunu diqqətdə saxlamış, ümumilikdə, məhsulların 126 halda keyfiyyət göstəricilərinin yoxlanılması təmin edilmişdir. Məhsulların sertifikatlaşdırılmasına dair elektron xidmət vasitəsilə daxil olmuş 38 müraciət operativ icra olunmuşdur.

Yerli istehsal məhsullarının keyfiyyətinin qorunması məqsədilə 85 qida istehsalı müəssisəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq işlər görülmüşdür. Təsərrüfat subyektlərindən götürülmüş məhsul nümunələrinin 111 halda laboratoriya analizləri aparılmış və texniki normativ-hüquqi aktların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

29 məktəbin bufetində, 5 digər təhsil müəssisəsinin bufet və yeməkxanasında və 11 məktəbəqədər tərbiyə müəssisəsinin yeməkxanasında monitorinqlər, 13 səhiyyə müəssisəsinin yeməkxanasında yerli məhsullarla təminatın üstünlüyü barədə maarifləndirici tədbirlər aparılmış və aşkar olunmuş bir sıra nöqsanlar yerində aradan qaldırılmışdır. Həmçinin 121 bərbərxana və 41 gözəllik salonunda maarifləndirmə xarakterli monitorinqlər aparılmış, 24 bərbərxana və 18 gözəllik salonunda aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması təmin edilmişdir. 60 ictimai iaşə və xidmət sahəsinə maarifləndirmə xarakterli baxış keçirilmiş, 18 təsərrüfat subyektində aşkar olunmuş çatışmazlıqlar aradan qaldırılmışdır. Standartların tələblərinə uyğun fəaliyyətin qurulması məqsədilə 18 təsərrüfat subyektində təmir işləri aparılmışdır.

Noyabr ayında metroloji norma və qaydalara uyğun olaraq 379 sayğac yoxlanılmışdır. Qızdırıcı elektrik və qaz cihazlarının satışı ilə məşğul olan 32 təsərrüfat subyektində də müşahidə xarakterli monitorinqlər aparılmış, təhlükəsizliyi təmin olunmayan 148 məişət qaz cihazının idxalına və satışına icazə verilməmişdir.

“Ailə təsərrüfatı məhsulları” festivalına çıxarılacaq məhsulların qablaşdırılması, etiketlərin düzgün yazılışı yoxlanılmış və bu istiqamətdə ailə təsərrüfatlarına metodik köməklik göstərilmişdir. Bununla yanaşı, məhsulların keyfiyyətinə nəzarət edilməsi üçün aidiyyəti orqanla birlikdə 445 halda məhsullardan nümunələr götürülərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartların tələblərinə uyğun olduğu müəyyən edilmişdir.

Qida məhsullarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin birgə komissiyası tərəfindən götürülmüş məhsulların 67 halda laboratoriya analizləri aparılmış, 6 adda məhsulun keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğun olmadığı müəyyən edildiyindən idxalçı ölkəyə geri qaytarılmışdır. Noyabr ayında, standartların tələblərinə uyğun olmayan 7000 manat dəyərində yararlılıq müddəti bitmiş, keyfiyyətsiz, kontrafakt məhsullar satışdan çıxarılmışdır.

*Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin mətbuat xidməti*

## Noyabr ayında 568 abunəçi internetlə təmin edilib

Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli poçt, rabitə, internet və teleradio xidmətlərinin göstərilməsi 2018-ci ilin noyabr ayında da davam etdirilmişdir. Ötən ay Şərur rayonunun Kosacan, Culfa rayonunun Qazançı Kənd mərkəzlərində Rabitə Evi istifadəyə verilmişdir. Aşağı Buzqov LTE baza stansiyasından 1 sektor Yuxarı Buzqov kəndinə daşınaraq kəndin Naxtel siqnalı ilə əhatə edilməsi təmin olunmuş, Şərur rayonunun Kərimbəyli kəndində yeni nəsil Avtomat Telefon Stansiyası yeni binaya köçürülmüşdür.

Nömrə tutumlarının artırılması nəticəsində hesabat ayında 183 yeni telefon nömrəsi istismara verilmiş, muxtar respublika ərazisində, ümumilikdə, 4004 metr fiber-optik kabel xətti çəkilmiş, genişzolaqlı ADSL texnologiyası vasitəsilə 568 yeni abunəçi internetlə təmin olunmuşdur. Həmçinin Naxçıvan Muxtar Respublikasının “Elektron hökumət” portalında yenilənmə işləri davam etdirilmişdir.

*Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti*

*Güclü, qüdrətli ordusu olan hər bir dövlətin müstəqilliyi də sarsılmaz və əbədidir. Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaradıldı. O dövrdə ümummilli liderimizin muxtar respublikamızda ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, həm də müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı oldu. Belə ki, ulu öndərin rəhbərliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasının Ermənistan ilə həmsərhəd əraziləri nəzarət altına götürüldü, etibarlı müdafiə sistemi yaradıldı.*

# Əlahiddə Ümumqoşun Ordu yüksək döyüş qabiliyyətinə malikdir



Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti hazırda uğurla davam etdirilir. Bu gün dünyanın ən güclü 50 ordusu sırasında yer alan yüzyaşlı Azərbaycan Ordusunun həm silah arsenalı, həm də maddi-texniki bazası genişlənir. Ən əsası isə bu gün sarsılmaz xalq-ordu birliyinə nail olunub. Ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər muxtar respublikamızda uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.

Bu gün Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyətinin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, xidmətin nümunəvi təşkili, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2017-ci il yanvarın 11-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun “N” hərbi hissəsindəki 900 yerlik əsgər yataqxanasının və Əsgəri-Məişət Kompleksinin açılışında iştirak edib, burada yaradılan şəraitlə və silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə keçmiş SSRİ və indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir. Ali Məclis Sədrinin tez-tez hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin xidmət şəraiti ilə maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə bərabər, hərbi qulluqçularda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur.

2017-ci il oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümünə həsr olunmuş hərbi parad Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələrinin güc və qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdi. Naxçıvanda yerləşən ordu, birləşmə və hissələrin şəxsi heyət, silah və texnikasının yalnız cüzi bir hissəsinin nümayiş olunduğu hərbi parad düşməni vahiməyə salıb, xalqımızın qürur və qələbəyə inam hisslərini daha da artırıb.

Ordu quruculuğu ilə bağlı görülən işləri yüksək qiymətləndirən Ali Baş Komandan Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdə deyib: ***“İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir”.***

Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi və hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu Günnüt əməliyyatı Azərbaycan əsgərinin rəşadət əzmini bir daha bütün dünyaya nümayiş etdirdi. Belə ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi. Hərtərəfli düşünülmüş və dəqiqliklə planlaşdırılmış tədbirlərin həyata keçirilməsi ilə bölmələrimiz ilkin mövqelərdən dərinliyə irəliləyərək daha əlverişli mövqelərdə möhkəmləndi, Günnüt kəndi ətrafındakı yüksəklikləri, Qızılqaya və Qaraqaya dağlarında yeni mövqeləri ələ keçirdi. Dərələyəz mahalının Arpa kəndində və Mehridərə vadisində düşmənin fəaliyyəti nəzarət altına götürüldü. Ümumilikdə, 11 min hektar ərazinin təhlükəsiz istifadəsi təmin edildi. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti İrəvan-Yexeqnadzor-Gorus-Laçın-Xankəndi avtomobil yoluna nəzarət etmək imkanına malik olmasıdır.



İyulun 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ordumuz tərəfindən nəzarət altına götürülərək etibarlı müdafiə sistemi qurulan Günnüt kəndindəki hərbi hissədə şəxsi heyətlə görüşüb, yeni mövqelərdə xidmətin təşkili ilə maraqlanıb, Günnüt əməliyyatında iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim edib.

İyunun 26-da Azərbaycan Ordusunun yaranmasının 100 illiyi ilə bağlı keçirilən möhtəşəm paradda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordumuzun digər uğurları ilə yanaşı, Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi Günnüt əməliyyatı haqqında da dəyərli fikirlər səsləndirib, bu əməliyyatı peşəkarlıq və məharətlə həyata keçirilən uğur adlandırıb.

2017-ci ilin hazırlıq planında göstərilmiş tədbirlərin tam yerinə yetirilməsi nəticəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələrində döyüş hazırlığı, intizamın nəticələrinə görə Əlahiddə Ümumqoşun Ordu birinci yeri tutub. 2018-ci tədris ilində də Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələri döyüş hazırlığı planına uyğun olaraq qarşıya qoyulmuş bütün tapşırıqları uğurla yerinə yetiriblər. Keçirilən təlimlərdə qarşıya qoyulmuş məqsədlərə nail olunması qeyd edilənlərə əyani misaldır. Bu baxımdan Azərbaycan və Türkiyə respublikaları arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq keçirilən birgə döyüş atışlı taktiki təlimlər xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanda və Türkiyə Respublikasının Qars şəhərində keçirilən döyüş atışlı birgə taktiki təlimlər hər iki qardaş ölkənin hərbi qüdrətindən və şəxsi heyətlərimizin yüksək vətənpərvərliyindən xəbər verir. Təlimlərin davamı kimi Naxçıvanda 2017-ci il iyunun 15-də Azərbaycan-Türkiyə “Birgə əməliyyat-taktiki təlimi” keçirildi. 2018-ci il may ayının 29-dan 31-dək Türkiyə Respublikasının Qars şəhərində keçirilmiş “Türkiyə-Azərbaycan döyüş atışlı birgə tabor tapşırıq qüvvəsi təlimi”ndə əməliyyatların birgə icra edilməsində uzlaşmış fəaliyyətə nail olunub və müxtəlif döyüş tapşırıqları praktik icra edilib. Təlimdə Əlahiddə Ümumqoşun Ordudan cəlb edilmiş bölmələr bütün döyüş tapşırıqlarını uğurla yerinə yetirərək yüksək nəticələr göstəriblər.



2018-ci il ərzində Türkiyə Respublikası Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun təlimatçı qismində iştirak etdiyi Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı, kəşfiyyat və xilasetmə bölmələrinin cəlb edildiyi “Kəşfiyyat” və “Dağçılıq” təkmilləşdirmə kursları, eləcə də snayper hazırlığı kursu uğurla təşkil olunub.

Bu il oktyabrın 30-da Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimində xüsusi təyinatlılarımız tapşırıqları yüksək peşəkarlıqla icra etdilər. Ümumilikdə, mindən artıq şəxsi heyət, 80-ə yaxın zirehli və avtomobil texnikası, 20-dən artıq hava hücumundan müdafiə vasitələri, 40-a yaxın artilleriya qurğusu, 10-dan çox aviasiya texnikası və pilotsuz uçuş aparatları iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi təlimi izləyiblər. Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin qarşılıqlı əlaqədə birgə fəaliyyəti nəticəsində təlimdə qarşıya qoyulmuş məqsədlərə tam nail olunub, yaradılmış hədəf qrupları və maketləri məhv edilib. Xüsusi təyinatlı qruplar tərəfindən təlim ərazisindəki ən yüksək zirvədə üçrəngli bayrağımız qaldırılıb və işğaldan azad edilmiş Günnüt kəndi ilə bağlı “Günnüt Azərbaycan əsgərinin rəşadət əzmidir” şüarı nümayiş olunub.

Təlimdən sonra şəxsi heyətlə görüş olub, zabit, gizir və əsgərlər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov və Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov təlimin təşkili və keçirilməsini yüksək qiymətləndiriblər. Ali Məclisin Sədri deyib: ***“Ordusu olmayan dövlət müstəqil ola bilməz. Güclü ordu güclü dövlətçilik, sabitlik və inkişaf deməkdir. Azərbaycan xalqının heç bir zaman öz müstəqilliyindən geri çəkilməyəcəyini bəyan edən ümummilli liderimiz deyirdi ki, “Azərbaycan təkcə bu gün yox, gələcəkdə də torpaqlarını, dövlət müstəqilliyini qorumaq üçün güclü orduya malik olmalıdır”. Ulu öndərimizin ordu quruculuğu sahəsində başladığı işi uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev dövlət müstəqilliyimizin qarantı olan güclü ordu yaratmışdır. Bu gün ordumuzun maddi-texniki bazasının gücləndirilməsi və döyüş hazırlığının artırılması istiqamətində kompleks tədbirlər görülür.”***



Naxçıvan Muxtar Respublikasının etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində son illər yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Ordu, birləşmə və hissələrdə əsgər yataqxanaları, əsgəri-məişət kompleksləri, təlim-tədris mərkəzləri, qərargah binaları, xəstəxanalar tikilib, sıra meydanı, idman şəhərcikləri salınıb. Belə tədbirlər dislokasiya yerləri daimi yaşayış məntəqələri olan hərbi hissələrlə bərabər ön xətdə yerləşən hissə və bölmələri də əhatə edir.

Hətta hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu Günnüt əməliyyatı nəticəsində işğaldan azad edilmiş yeni mövqelərdə qısa zaman kəsiyində inşa olunan əsgəri-məişət kompleksləri ön xətdə xidmətin rahat və etibarlı təşkilinə müsbət təsir göstərir.

Oktyabrın 8-də Əlahiddə Ümumqoşun Ordunun yeni hərbi hissəsinin istifadəyə verilməsi muxtar respublikamızda ordu quruculuğu sahəsində görülən işlərin məntiqi davamıdır. Yeni hərbi hissədə ikimərtəbəli texniki nəzarət məntəqəsi və qarovul evi, 160 yerlik 80 texnika saxlancı, texniki qulluq və təmir, yanacaqdoldurma, eləcə də gündəlik texniki xidmət məntəqələri yaradılıb. Burada hərbi texnika və avtomobillərin saxlanması, təlimata uyğun istifadə və istismarı, eləcə də qarovul xidmətinin düzgün təşkili üçün hərtərəfli şərait yaradılıb.

Ordumuzun hərtərəfli təminata, ən müasir silah-sursata və yenilməz, qətiyyətli, peşəkar şəxsi heyətə malik olması günümüzün reallığıdır. Əlahiddə Ümumqoşun Ordunun birləşmə, hissə və bölmələrində xidmət edən hərbi qulluqçularımızın yüksək nizam-intizama və döyüş qabiliyyətinə malik olması xalq-ordu birliyi nəticəsində yaradılan nümunəvi xidməti şəraitin və hərbi xidmətin düzgün təşkilinin nəticəsidir. Bu gün məğlubedilməzliyi və qələbə əzmi daha da artan Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti qədim hərb ənənələrinə və mübarizə tarixinə malik olan Naxçıvanımızın müdafiəsində cəsarətlə dayanır, müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir. Bu il Naxçıvan şəhərində açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyinin istifadəyə verilməsi də muxtar respublikada formalaşdırılmış hərb ənənələrinə ehtiramın ifadəsidir.

***Bu gün Azərbaycan əsgərinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunması, xalqımızın ordumuzu güvənc yeri bilməsi qəlbi Vətən eşqi ilə döyünən vətəndaşlarımızın əsgərlərimizə sevgi və ehtiramının göstəricisidir. Göründüyü kimi, əldə olunan uğurların, qazanılan zəfərlərin arxasında xalq-ordu birliyi dayanır. Deməli, nə bu gün, nə də gələcəkdə heç bir düşmən əli bu torpaqlara uzana bilməz.***

**Nəriman NƏCƏFOV**

# Hər daşın altında bir tarix yatır

## *Şərur ərazisi bəşər övladının ən qədim yaşayış məskənlərindən biridir*



***Şərurda uzaq Daş (Orta Paleolit) dövründən başlamış tarixin bütün mərhələlərinə aid çoxlu sayda maddi-mədəniyyət abidələri vardır. Ərazi zəngin tarixi irsə malik olan diyardır. Coğrafi məkan olan “Şərur” adının yaranması və etimologiyası ilə bağlı bir çox tədqiqatçıların fikirlərinə nəzər yetirək.***

Tədqiqatçı Məmməd Ellinin fikrincə, “Şərur” adının yaranması qədim şumer əsatiri ilə bağlıdır. Şumerlər “Ninurta tanrının hünəri” adlı əsatirdə “İlahi nizə”ni “Şərur” adlandırmışlar. Əsatirin qısa məzmunu belədir: “Yeraltı dünyada Kur ölkəsində Asaq adlı qanadlı, qorxunc bir azman – nəhəng (əjdaha) yaşayırmış… Asaq ölümsaçan gözlərini bərəldir, Ninurta qorxub geriyə atılır. Şərur dilə gəlir: “Heç qorxub eləmə! At məni quduz azmanın üstünə, mən onu məhv edəcəyəm”. Ninurta Şəruru azmana doğru atır. Şərur azmanı ortasından dəlib keçir”.

Bu qədim əsatirə görə, “Şərur” sözünün mənası “nizə”, yəni qara qüvvənin, şərin, pisliyin qənimi, “ilahi güc”, “əzəmət”, “qüvvət” deməkdir. Digər bir mənbədə isə göstərilir ki, “Şərur” adı qədim elamkassit tayfalarının dilində “Şeru” – “çöl”, “düzənlik” mənasını verir.





Yazılı tarixi mənbəmiz olan “Kitabi-Dədə Qorqud” dastanında da “Şərur” adına rast gəlinir. Dastanın “Uşun Qoca oğlu Səgrəyin boyu”nda göstərilir: “Üç yüz nəfər say-seçməli igid Şərukun ucundan Göyçə dənizinə qədər yol gedirlər. Orada qələbə çalıb Əlincə qalasına dönürlər”. Göründüyü kimi, “Kitabi-Dədə Qorqud” dastanında Şərurun ilkin adlarından biri kimi “Şəruk” adı göstərilmişdir.

Tədqiqatçıların da fikrincə, “Şərur” adının yaranması və mənşəyi qədim türk tayfası olan şumerlərlə sıx bağlıdır. Belə ki, şumer şəhər-dövlətləri olan Ur və Uruq şəhərləri eramızdan əvvəl III minillikdə qədim Mesopotamiyanın ən qüdrətli şəhər-dövlətləri idi. Bu şəhər-dövlətlərlə Azərbaycanın cənubu və şimalı arasında daha sıx iqtisadi, siyasi və mədəni əlaqələr yaranmışdı. Bu səbəbdən də ərazidə yaşayan qədim türk tayfaları – naxç və gərgərlər bu ulu yurdu “Şərur” adlandırmışlar. Diqqət edək: “Şərur” adı zaman-zaman dəyişərək “Şəruk”, “Şəuruk”, “Şərur” və nəhayət, “Şəril” şəklinə düşmüşdür. Göründüyü kimi, qədim Mesopotamiyanın Ur və Uruq şəhər adları “Şərur” və ya “Şəruk” adının ikinci komponenti ilə üst-üstə düşür. Şərurun qədim şumerlərlə sıx bağlı olduğunu sübut edən başqa bir mənbə arxeoloji abidələrimizdən aşkar edilmiş saysız-hesabsız maddi-mədəniyyət nümunələridir.

Şərur ərazisində mövcud olan bu qədim yurdun Azərbaycançılıq möhürü sayılan tarixi abidələrdən Havuş kəndində Dana qalası, Gəlin qayası, Havuş mağarası, Axura kəndində Ağvantəpə, Hadıqayıb, Pisdər mağaraları, Tənənəm kəndində Qazma mağarası, Gümüşlü kəndində Qarasu qalası, Qız qalası, Aşağı Yaycı kəndində Yaycı qalası, Qız qalası, Dizə kəndində kurqanlar, Ovçular təpəsi, Oğlanqala kəndində Qalacıq arxı, Şahbulaq və Danyeri kəndlərindəki qalalar, Arpaçay üzərində birtağlı Dədəli körpüsü, Cəlilkənddə Buxxana, Zeyvə kəndində Daş heykəl və sair onlarla abidə Şərurun keçmişini bu günə daşıyan tarixi yaddaşımız sayılan nadir incilərdir. Bu abidələr eramızdan əvvəl V-VIII minilliklərdən başlamış bizim eranın XVIII-XIX əsrlərinə qədər böyük bir dövrü əhatə edir.

Uzun əsrlərboyu bu qədim diyarın adı tarixi mənbələrdə Şəril (Şəril eli, Şəril mahalı, Şəril çuxuru) kimi də çəkilib. Hətta gözəl saz havacatları olan “Şərili”, “Ağır Şərili” və “Orta Şərili” el aşıqlarının dilindən bu gün də düşmür.

Azərbaycanın çar Rusiyasının müstəmləkəsi olduğu dövrdə Şərur diyarı inzibati ərazi kimi İrəvan quberniyasının Şərur-Dərələyəz uyezdinə daxil edilib. Qeyd edək ki, 1905-ci ildə Culfa - İrəvan dəmiryol xətti istifadəyə veriləndə rayon mərkəzindəki Şərur dəmiryol stansiyasının ərazisində bir neçə ev tikilmişdi ki, burada da, əsasən, dəmiryolçu ailələri yaşayırdılar. 1924-cü ildə Pambıqtəmizləmə Zavodu tikildikdən və Maşın-Traktor Stansiyası yaradıldıqdan sonra burada əlavə bir neçə ictimai yaşayış binası da inşa olunmuş, rayon mərkəzi Cəlilkənddən Şərur dəmiryol vağzalının yerləşdiyi əraziyə köçürülmüş və 1930-cu ildə Şərur inzibati rayonu yaradılmışdır. Rayon mərkəzi getdikcə böyümüş və 1948-ci ildə qəsəbə adını almışdır. 30-cu illərin ortalarında rayonun adı bir neçə dəfə milli etnogenezisə uyğun olmayan şəkildə dəyişdirilmiş, nəhayət, 1991-ci ildən Şərur adı yenidən bərpa olunmuşdur.

Şərur rayonu ərazisindəki çoxsaylı arxeoloji abidələrin əksəriyyətində hazırda geniş qazıntı işləri aparılır. Tədqiq olunan qədim yaşayış məskənləri içərisində Qazma mağarası xüsusi əhəmiyyət kəsb edir. Tənənəm kəndinin yaxınlığında yerləşən bu mağara ən qədim insan düşərgəsi olaraq Orta Paleolit dövrünə, yəni eramızdan 60-80 min il əvvələ aiddir. Mağarada ilk tədqiqat işlərinə 1983-cü ildə tanınmış arxeoloq Məmmədəli Hüseynov başlamış və 1990-cı ilə qədər bu işi arxeoloq Əsədulla Cəfərov davam etdirmişdir. Aparılan qazıntı işləri nəticəsində tariximiz üçün çox qiymətli olan arxeoloji tapıntılar, o cümlədən 17 mindən artıq heyvan sümüyü, 24 növ fauna qalığı, 874 ədəd daş məmulat aşkarlanmışdır. Bu tapıntıların bir hissəsi hazırda rayon Tarix-Diyarşünaslıq Muzeyində nümayiş etdirilir.

Şərurun arxeoloji abidələrindən biri də Dizə kəndi ərazisində yerləşən Ovçular təpəsidir. Bu qədim yaşayış yeri Arpaçayın sol sahilindəki çox da hündür olmayan təpənin üzərində yerləşir. Qədim əkinçilik və maldarlıq mədəniyyətini özündə əks etdirən Ovçular təpəsində yaşayış eramızdan əvvəl IV minillikdən başlamış və III minilliyin sonlarına qədər davam etmişdir. Ovçular təpəsi tariximiz üçün çox önəmli olan arxeoloji abidələrdən biridir. 2007-ci ildən etibarən Şərur ərazisindəki bir çox abidələrdə, o cümlədən Ovçular təpəsi və Oğlanqala abidəsində daha genişmiqyaslı arxeoloji qazıntı işləri aparılır. Ovçular təpəsində aparılan qazıntının ümumi sahəsi 500 kvadratmetri əhatə edir. Ekspedisiyanın tərkibində bir çox xarici ölkələrdən gəlmiş arxeoloqlarla yanaşı, AMEA və onun Naxçıvan Bölməsinin arxeoloq alimləri Vəli Əliyev, Vəli Baxşəliyev, Səfər Aşurov və başqaları da iştirak edirlər. Burada aparılan arxeoloji qazıntılar zamanı Eneolit və Erkən Tunc dövrlərinə aid möhrədən və kiçik çay daşlarından hörülmüş yaşayış yerlərinin qalıqları, taxıl məhsullarını saxlamaq üçün quyular, gildən hazırlanmış müxtəlif məişət avadanlıqları, əkinçilikdə istifadə olunan əmək alətləri aşkar edilmişdir.

Şərurun arxeoloji abidələri içərisində Oğlanqala öz möhtəşəmliyinə və tikinti əzəmətinə görə daha çox diqqəti cəlb edir. Bu arxeoloji abidə Arpaçayın sağ sahilində, Oğlanqala kəndi ərazisindəki Qaratəpə dağının üzərində yerləşir. Qədim yaşayış yerinin ümumi sahəsi 40 hektardan çoxdur. Tarixi mənbələrdə Oğlanqala abidəsinin eramızdan əvvəl II-I minilliyə aid edilən, tikili baxımdan Assuriya qala tikililərinə (siklopik tikililər) bənzərliyi olduğu bildirilir. Oğlanqala abidəsində ilk dəfə 1936-cı ildə kəşfiyyat xarakterli qazıntı işləri aparılmış, 80-ci illərin sonlarında arxeoloq Vəli Baxşəliyev Oğlanqalada daha geniş qazıntı işlərinə başlamışdır. 2007-ci ildən etibarən Vəli Baxşəliyevin və Səfər Aşurovun rəhbərliyi ilə Oğlanqalada beynəlxalq ekspedisiya genişmiqyaslı qazıntı işləri aparır. Ekspedisiyanın tərkibində Amerikanın Corciya Universitetinin arxeoloq alimləri və tələbələr də iştirak edirlər.

Qazıntı işləri Oğlanqalanın yuxarı hissəsində, “Narınqala” adlanan sahədə aparılır. Burada tariximiz üçün çox dəyərli olan saray tikililəri aşkar edilmişdir. Binaların divarları iri-həcmli, eyni zamanda yonulmuş mərmər daşlarla hörülmüşdür. Daşların belə səliqə ilə yonulması mahir sənətkarlıq nümunəsidir. Müxtəlif-ölçülü binaların içərisində uçub dağılmış və ətrafa səpələnmiş çoxlu sayda iri sütun altlıqları diqqəti cəlb edir. Saray tikililərinin bu cür dağıntıya məruz qalması onu deməyə əsas verir ki, eramızdan əvvəl II minilliyin sonu, I minilliyin əvvəllərində Oğlanqalada məskunlaşmış qədim türk tayfaları qonşu tayfaların dağıdıcı basqınlarına məruz qalmışdır. Saray dağıntıları, xüsusilə sütun və sütun altlıqlarının ətrafa səpələnməsi belə bir ehtimal da irəli sürməyə əsas verir ki, eramızdan əvvəl I minillikdə baş vermiş təbii fəlakətlər və ya aramsız müharibələr möhtəşəm Oğlanqala şəhər yerinin dağılmasına səbəb olmuşdur.

Şərur ərazisində mövcud olan tarixi-memarlıq abidələrindən biri də Pir Süleyman türbəsidir. Ziyarətgah sadə formada tikilmiş ikimərtəbəli, yəni sərdabə və türbədən ibarətdir. Türbəyə sonradan çoxlu əlavələr edildiyindən onun əsl memarlıq görkəmi tamamilə dəyişmişdir. Pir Süleyman türbəsinin memarlıq üslubuna görə XV-XVI əsrlərdə tikildiyini söyləmək olar.

Muxtar respublika ərazisi, o cümlədən Şərur rayonu özünün coğrafi mövqeyinə və zənginliyinə görə turizm baxımından əhəmiyyətli bölgədir. Son illər bölgəyə daha çox turistin cəlb olunması üçün bir sıra zəruri tədbirlər görülür. Təbii ki, buradakı möhtəşəm tarixi abidələrimiz də turistlərin böyük marağına səbəb olur.

Şərurun Eneolit və Erkən Tunc dövrlərinə aid olan abidələri sırasına Xələc kəndi ərazisindəki “Xələc dağ” və “Yamaclar”, Ərəbyengicə kəndi ərazisində “Köhnə qəbiristanlıq”, Maxta kəndi ərazisində “Kültəpə”, İbadulla kəndində “Şortəpə”, Aşağı Daşarx kəndi ərazisində şərti adı “Təpə” olan qədim yaşayış yerləri və başqa arxeoloji abidələrimiz də daxildir.

Qürurverici haldır ki, muxtar respublikada tarixi keçmişimizin, maddi-mədəni irsimizin qorunub yaşadılması və təbliği istiqamətində görülən işlər bu gün öz bəhrəsini verməkdədir.

Şərurun bir çox abidələrinin, o cümlədən Qazma mağarası, Ovçular təpəsi, Oğlanqala, Aşağı Daşarx, Ərəbyengicə, Xələc, Şortəpə, Ağvantəpə, Qarabulaq və bu qəbildən olan qədim yaşayış yerlərinin dünya əhəmiyyətli arxeoloji abidələr sırasına daxil edilməsi buna parlaq sübutdur.

*Abidələri öyrəndikcə Şərurun tarixinin çox qədim olduğunun, bu torpaqda zəngin mədəniyyətin və mənəvi irsin toplandığının şahidi oluruq. Dünən yaradılan hər bir abidə zamanın izidir. Hər daşının altında bir tarix yatan qədim abidələrimiz, dünənimizə işıq tutan arxeoloji axtarışlar xalqımızın qədimliyindən, ululuğundan xəbər verir. Bu həm də tariximizi saxtalaşdırmağa, öz xeyirlərinə dəyişmək istəyənlərə tutarlı cavabdır.*

**Allahverdi ƏSGƏROV**
***Şərur rayonundakı Ələkli kənd tam orta məktəbinin tarix müəllimi***

*Torpaqların təyinatı üzrə istifadəsi sahəsində Şahbuz rayonunda görülən işlər və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev açıb.*

# Torpaqlardan təyinatı üzrə istifadə məsələləri müzakirə edilib



Bildirib ki, torpaq mülkiyyəti üzərində hüquqların qorunması istiqamətində mütəmadi olaraq tədbirlər keçirilir. Həyətyanı, eləcə də pay torpaqlarının başqası tərəfindən zəbt edilməsi və digər müdaxilələrlə bağlı müraciətlər vaxtında araşdırılır və tədbirlər görülür.

Şahbuz rayon prokuroru Daşqın Rəhimov müşavirədə çıxış edərək bildirib ki, fiziki və hüquqi şəxslərlə yanaşı, bələdiyyələr də mülkiyyətində olan torpaqların məqsədli təyinatı üzrə istifadə edilməsini təşkil etməli, dövriyyədən əsassız çıxarılmasına yol verməməli, onların mühafizəsi sahəsində qanunla müəyyən olunmuş qaydada tədbirlər görməlidirlər. Əhali məlumatlandırılmalı, torpağın münbit qatının qorunması və artırılması istiqamətində maarifləndirici tədbirlər həyata keçirilməlidir.

Bələdiyyə mülkiyyətində olan torpaqların zəbt olunmasının qarşısını vaxtında almayan bələdiyyələrin vəzifəli şəxsləri isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 314-cü maddəsində nəzərdə tutulmuş qaydada səhlənkarlıq əməlinə görə məsuliyyət daşıyırlar. Həmin hadisəni törədən şəxsləri isə min beş yüz manatdan üç min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz altmış saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrumetmə cəzası gözləyir.

Analoji tədbir Sədərək və Ordubad rayonlarında da keçirilib.

**Xəbərlər şöbəsi**

# Elmi kitabxananın 50 illik yubileyi qeyd olunub



Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasının 50 illik yubileyinə həsr edilmiş tədbirdə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov giriş sözü ilə çıxış edərək 1968-ci ilin aprel ayında fəaliyyətə başlayan kitabxananın keçdiyi tarixi inkişaf yolundan ətraflı bəhs edib. Rektor 2004-cü ildə universitetin kitabxanası üçün Avropa standartlarına uyğun yeni beşmərtəbəli binanın inşa edilməsini muxtar respublikada təhsilə, elmə göstərilən yüksək diqqət və qayğı kimi dəyərləndirib. Bildirilib ki, muxtar respublika rəhbərinin qayğısı sayəsində kitabxananın fondu zənginləşdirilib, maddi-texniki bazası ən müasir tələblər səviyyəsində qurulub.

Elmi kitabxananın direktoru Fariz Əhmədov “Yarımərslik elm məbədi” mövzusunda çıxışında qeyd edib ki, 2013-cü ildə yaradılan elektron kitabxanada bu günə qədər 4 mindən artıq kitabın elektron PDF-i və 40 mindən artıq elektron kataloq *lib.ndu.edu.az* saytı vasitəsilə oxucuların istifadəsinə buraxılıb.

Ümumilikdə, 20 minə yaxın oxucusu olan kitabxanada müxtəlif mədəni-kütləvi tədbirlər, kitab sərgiləri, qısamüddətli və daimi sərgilər, həmçinin kitab təqdimatları və müzakirələri də təşkil olunur. Bildirilib ki, kitabxananın nəzdində 1997-ci ildə Heydər Əliyev Universiteti kitabxanasının yaradılması ümummilli liderin həyatının və siyasi fəaliyyətinin öyrənilməsində müstəsna əhəmiyyətə malikdir.

Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Könül Seyidova “Müasir gənclik və mütaliəyə maraq” mövzusunda çıxış edib.

Sonra kitabxananın əməkdaşları, kitabxanadan müntəzəm istifadə edən müəllim və tələbələr universitetin fəxri fərmanları ilə təltif ediliblər.

Tədbir İncəsənət fakültəsinin hazırladığı ədəbi-bədii kompozisiya ilə davam edib.

Sonda “Universitet” televiziyasının kitabxananın 50 illik fəaliyyəti ilə bağlı hazırladığı videoçarx nümayiş olunub. Yubiley tədbiri iştirakçıları “Oxunması zəruri olan kitablar”ın və kitabxana əməkdaşlarının əsərlərinin nümayiş olunduğu sərgilərlə də tanış olublar.

**Səadət ƏLİYEVA**

Xalq təqvimi

# Çillələr gəlir

***Nənə-babalarımız elə bu gün də söhbət zamanı hər hansı bir gün haqqında danışanda dəqiq tarix deməzlər. Əsrlərin sınağından çıxmış milli tarixlər isə onlar üçün dəyişilməzdir. Ağbirçəklərimiz, ağsaqqallarımız üçün aylar özünə mənəvi hüquq qazanmış məfhumlar içərisində “əriyir” – məhərrəm, ramazan, qurban, cəfər, bayram ayları... Onların təbirincə fəsilləri əvəz edən vaxtlar da olub: Böyük çillə, Kiçik çillə, Boz çillə...***

Çillələrlə bağlı bir çox əfsanələr dildən-dilə keçib bu günümüzə kimi gəlib çatıb. Deyilənlərə görə “Qış” adlı bir kişinin “Böyük çillə”, “Kiçik çillə”, “Boz ay” adlı üç oğlu var imiş. Qış əvvəlcə ilkini – Böyük çilləni qırxgünlük səfərə göndərir ki, gedib el-obaları gəzsin, dünyaya tamaşa eləsin. Görsün nə var, nə yox, adamlar necə yaşayır, necə işləyirlər?



Böyük çillə altdan-üstdən bərk geyinir. Ağ qar yapıncısını da çiyinlərinə salıb yola çıxır. Az gedir, çox dayanır, çox gedir, az dayanır, axır ki, aralıq ayının – yəni dekabrın iyirmisində gəlib el-obaya yetişir. Adamlar səhər yuxudan oyanıb çölə baxanda görürlər ki, paho, hər yan ağappaq qara bürünüb. O saat barmaqlarını dişləyirlər ki, Böyük çillə gəlib çıxıb. Deməli, nə az, nə çox, düz qırx gün dağda-düzdə, kənddə-kəsəkdə bu özünün qar atını belədən-elə, elədən-belə çapacaq. Nə etməli, Böyük çillənin qarından-soyuğundan qorxub evin bir küncünə çəkilmək olmaz ki! Bəs onda iş-gücün qulpundan kim yapışsın?

Çuvalların, küpələrin, xaralların ağzı açılır, təndirlər yandırılır, kürsülər qurulur, buğda götürülüb, səməni göyərdilir. Göyərdilmiş səməni taxta çanaqda, tabaqda döyülüb suyu sıxılır. Yeddi qonşu evdən un alınıb bu səməni suyunda sıyıq, xəmir iri tavada ocaq üstə qoyulur. Başlayırlar səməni halvası bişirməyə. Halva bişənə yaxın onun içinə badam, qoz ləpəsi də salınır. Yeddi qabda yeddi evə pay göndərilir.

Bayram və mərasimlər hər zaman etnoqraflarımızın diqqətini cəlb etmiş və bu mərasimlər haqqında bir çox araşdırmalar aparılmışdır. Elə biz də mövzu ilə bağlı AMEA Naxçıvan Bölməsinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Asəf Orucovla həmsöhbət olduq.

O bildirdi ki, xalqın tarixi keçmişinin, xüsusən mənəvi mədəniyyətinin öyrənilməsində təqvimlə bağlı adət və mərasimlər mühüm əhəmiyyət kəsb edir. Bunlar arasında qış adət və mərasimləri xüsusi yer tutur. Çillə gecəsi qışın başlandığı gün kimi qeyd olunur, dekabrın 20-nə, yaxud 21-nə təsadüf edir.

Etnoqraf alim qədim mərasimlərdən biri olan və bu gün də xalqımız tərəfindən yaşadılan qışın qarşılanması – çillə gecəsi haqqında danışaraq onu da qeyd etdi ki, ilin son fəsli olan qış təsərrüfat işlərində mühüm rol oynamasa da, xalq etiqadlarında, adət və ənənələrində, inamlarda ona aid zəngin materiallara rast gəlirik. Qışın əsas atributlarından biri qardır. Qar bərəkət, gələn ilin bolluğu və məhsulu deməkdir. Payız əkinlərinin qalın qar ilə örtülməsi onu şaxtadan qoruması, yazda bol su ilə təmin etməsi deməkdir. Bunu aşağıdakı folklor nümunəsində də görmək olar:

*Böyük çillə, nar çillə,*
*Ağ gül üstə qar çillə.*
*Taxıllara yorğan ol,*
*Bağçalara bar, çillə.*

Qar örtüyünün insanlar üçün müsbət xüsusiyyətli olması “Qar olmasa, bar olmaz”, “Qar ili, var ili” kimi atalar sözlərində də öz əksini tapıb.

Qış fəslində gecə və gündüz havanın necə keçməsi kimi əlamətlər ilin ümumi vəziyyəti haqqında fikir söyləməyə imkan verir. Xalqımızın müşahidələrinə görə, qış fəslində gecələr ayaz, gündüzlər dumanlı, buludlu keçərsə, bu, ilin yaxşı keçməyəcəyinə işarədir. Əksinə, qışda gündüzlərin ayaz, gecələrin buludlu, dumanlı keçməsi isə ilin xoş keçib, insanlar üçün faydalı olacağı kimi yozulurdu. Ümumiyyətlə, xalqımız qışa çətinlik dövrü kimi baxsa da, o həm də əyləncə, nağıl, aşıq məclisləri, qadınların toxuculuq işləri ilə də yadda qalardı. İnsanlar bütün yorğunluğunu qış mövsümündə atardılar. Qış görüləcək işlərin az olması səbəbi ilə bir dincəlmə mövsümüdür.

Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq “Çillə” adı ilə üç yerə bölüb. Böyük çillə 40 gün (21 dekabr-30 yanvar), Kiçik çillə 20 gün (31 yanvar-20 fevral), ala çillə və ya ala çolpav (“Boz ay” da deyilir) isə bir ay (20 fevral-20 mart) olur.

“Çillə bayramı”, “Çillə gecəsi” payız fəslinin sonu, qış girən günü, yəni dekabr ayının 20-si gecəsi qeyd edilir. “Çillə gecəsi” ilin 365 gecəsinin ən uzunu və qışın başlanğıc gecəsidir. Mənbələrdə qeyd edilir ki, çillə “çehil” sözündəndir, mənası “qırx” deməkdir. Xalq arasında ağırlıq anlamında başa düşülür. Çillə dərd, kəramət, xəstəlik mənasında qəbul edildiyindən onun girməsi dərdin, çətinliyin gəldiyinə işarədir. “Çillə bayramı”nın erkən çağlar “sırağan”, yaxud “çırağan” kimi də adlandırıldığı göstərilir. Qeyd edək ki, doğumla bağlı inam və adətlərdə “çilləli”, “çillə kəsmək”, “çillə basdı” və sair kimi ifadələrə də rast gəlirik. Bu da müəyyən xəstəlik, çətinliklərlə bağlıdır. B.Abdulla yazır ki, adamlar bir müsibət, bəla ilə üzləşdikdə ondan xilas olmaq, yaxa qurtarmaq üçün xüsusi ayin icra edərdilər ki, elə bu da “çillə kəsmək” adlanırdı.

“Çillə bayramı”nı xalqımız xüsusi qeyd edər, bu bayrama hələ bir neçə gün əvvəldən hazırlıq görərdilər. Bayram günü, demək olar ki, bütün evlərdə “çillə qarpızı” kəsilərdi. Hər kəs çalışardı ki, həmin gün evində “çillə qarpızı” olsun. Qarpız çillə gecəsinin ən gözəl payı hesab edilir. Əksər ailələr belə qarpızları əvvəlcədən alıb saxlayardılar.

Müsahibim onu da bildirdi ki, toplanmış çöl materiallarına əsaslanaraq deyir ki, Naxçıvanın Arazboyu kəndlərinin əksəriyyətində çox da böyük olmayan, qalın qabıqlı xüsusi qarpız növü əkilmişdi ki, belə qarpızları uzun müddət, hətta Novruza qədər saxlamaq olardı. Çilləyə saxlanılması nəzərdə tutulan qarpız tam yetişməmiş və saplaqlı olsa, daha yaxşı qalar. “Çillə qarpızı” xarab olmasın deyə, onu ot və ya samanın içərisində saxlayırdılar. “Çillə qarpızı”na bolluq, bərəkət rəmzi kimi baxılır.

“Çillə gecəsi”ndə qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa da işarədir. Digər məlumata görə, çillədə qarpız kəsəndə deyərlər ki, “ay qarpız, səni mən necə kəsirəmsə, çilləni də belə tez kəsim”. Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Bəzi bölgələrimizdən (Şərur, Ordubad) yaşlı insanların verdiyi məlumata görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yəni günəşli olsun. Çillə qarpızı kəsilən vaxt xalq arasında “niyyətetmə” adəti mövcuddur. Niyyət zamanı qarpızın baş tərəfini kəsib, dörd yerə ayırıb atırlar. Əgər ikisi eyni rəngdə ağ və ya göy olarsa, niyyət qəbul edilmiş olur. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutulub atılması dörd fəsillə, qarpız qabıqlarının rənglərinə uyğun (ağ və göy) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Bundan başqa, qarpız kəsilib yeddi evə pay göndərilir. Çillə bayramı günü nişanlı qızların, təzə gəlinlərin bayram görüşünə (Çillə bayramına) gedərdilər. Bayramlıqlar içərisində “Çillə qarpızı” xüsusi yer tutardı. Bu ənənə bəzi bölgələrimizdə bu gün də qorunur, yaşadılır və qeyd edilir.

*Bu qarpız çilə qarpız,*
*Düşübdür dilə qarpız.*
*Yığılıb xonçalara*
*Gedir yargilə qarpız.*

Şərur rayonunun bəzi kəndlərindən toplanmış materiallara görə, nişanlı qızlara qarpız aparanda onun yanına bıçaq da qoyardılar. Qarpız aparılan bıçaqla kəsilir və sonra yenidən oğlan evinə qaytarılırdı.

Tarix üzrə fəlsəfə doktoru Asəf Orucov onu da vurğuladı ki, Ordubad bölgəsində həmin gün evdə un yeməkləri (xəşil, tərək, quymaq), hədik bişirilər, qovurğa qovurular, qovut çəkilərdi.

Etnoqrafik çöl materiallarına əsaslanaraq demək olar ki, çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasında olan inama görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz. Ordubad bölgəsinin bəzi kəndlərində mövcud olan adətə əsasən çillədə qarpız yoxdursa, ürəklər sərin olsun deyə, qatıq yeyərdilər. Həmin gecə süfrəyə “q” hərfi ilə başlanan nemətlər, məsələn, qarpız, qovun, qatıq, qovurğa, qaysava, qovurma, qovut və başqa nemətlər qoyma adəti də mövcuddur. Çillədə qarpızın kəsilməsi və yaxud qarpız olmasa, qatıq yeyilməsi adətini nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, bunların hər ikisi sərinləşdirici əlamətlərə malikdir. Bunların yeyilməsi qışın soyuğuna qarşı çıxmaq, ona hazır olmaq anlamına gəlir. Qarpızın içərisinin qırmızı rəngdə olması Günəşin rəmzi kimi sayıla bilər ki, bu da istiliyi çağırmaq anlamı ilə bağlıdır. Müsahibimiz bildirir ki, filologiya üzrə fəlsəfə doktoru, folklorşünas Elxan Yurdoğlu ilə birgə hazırladıqları, bu günlərdə işıq üzü görən “Naxçıvanda bayram və mərasimlər” monoqrafiyasında xalqımızın qədimdən bu günə kimi yaşatdığı mərasimlərlə bağlı ətraflı məlumat vardır.

Əsrlərdən bəri gələn hər bir bayram öz gəlişi ilə əlamətdardır. Xalq özünün ən ağır günlərində belə, bu el mərasimlərini qeyd etməyi yaddan çıxarmayıb. Arzumuz budur ki, el-obamızda həmişə əmin-amanlıq olsun. Həmişə olduğu kimi, yenə də ulularımızın illərdən bəri bizə ərməğan kimi saxladığı el adət-ənənələrimizi beləcə, deyə-gülə, xoşhallıqla qarşılayıb yola salaq.

**Ramiyyə ƏKBƏROVA**

# Mədəniyyət müəssisələrində qarşıya qoyulan vəzifələr yerinə yetirilir



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən noyabr ayında milli dəyərlərimizin qorunub yaşadılması və təbliği sahəsində bir sıra işlər görülmüş, muzeylərin fəaliyyəti diqqətdə saxlanılmış, mədəniyyət müəssisələrində əlamətdar və tarixi günlərlə bağlı tədbirlər keçirilmişdir. Muzeylərdə açıq və interaktiv dərslər, seminar-treninqlər davam etdirilmiş, sərgilər açılmış, muzey fondlarına 146 yeni eksponat daxil olmuşdur. Ötən ay muxtar respublika muzeylərini 55 min 884 tamaşaçı ziyarət etmişdir ki, onlardan da 14 min 608-i xarici ölkə vətəndaşı olmuşdur.*

Noyabr ayında kitabxanaların da fəaliyyəti diqqətdə saxlanılmış, kitab müzakirələri aparılmışdır. Muxtar respublika kitabxanalarında yeni oxucu sayı 327, oxucu gəlişi 13 min 80 nəfər, kitab verilişi 39 min 867 nüsxə olmuş, “Mütaliə”, “Nağıl”, “Kitabxanaçı” və “Kitabxana” günləri keçirilmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrı “Əli və Nino” və “Qayınana əməliyyatı”, Naxçıvan Dövlət Kukla Teatrı “Göyçək Fatma”, “Qırmızı, yaşıl, mavi”, “Meşə macəraları”, “Nəğməkar bülbül”, “Sirli sözlər”, Naxçıvan Dövlət Uşaq Teatrı isə “Nadan xoruz” tamaşalarını nümayiş etdirmişlər. Babək Rayon Xalq Teatrı muxtar respublikanın şəhər və rayonlarında “Subaylarınızdan görəsiniz”, Şərur Rayon Xalq Teatrı “Varlı qadın”, Naxçıvan Şəhər “Gənclik” Xalq Teatrı isə “Yarımgünlük rəis müavini” tamaşalarını göstərmişlər.

Naxçıvan Dövlət Film Fondu “Azərbaycan Kinosu Günü” layihəsi çərçivəsində Culfa rayonunun Teyvaz kəndində “Qırmızı bağ”, Babək rayonunun Cəhri kəndində “Xoşbəxt ay-ulduz”, Ordubad şəhərində “Dərvişin qeydləri”, məktəblilər üçün “Xoşbəxt ay-ulduz” bədii və sənədli filmlərini nümayiş etdirmişdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Fiziki tərbiyə müəllimlərinə seminarlar keçirilir



Dekabrın 10-da Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında” müşavirədə Təhsil Nazirliyinə də bir sıra tapşırıqlar verilmişdir. Həmin tapşırıqların icrasının təmin olunması, ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisi səviyyəsinin artırılması, Uşaq-gənclər şahmat və idman məktəblərinin fəaliyyətlərinin gücləndirilməsi məqsədilə Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrinin fiziki tərbiyə müəllimləri üçün təlim-seminarlara start verilmişdir.

Fənn müəllimlərinin peşəkarlığının artırılmasına və fiziki tərbiyə dərslərinin daha yüksək keyfiyyətli tədrisinə köməklik məqsədi daşıyan ikihəftəlik təlim-seminarlarda əsas diqqət nəticəyönümlü yanaşma əsasında müasir təlim üsullarına yönəldilir. Seminar iştirakçılarına gənc nəslin fiziki inkişafında, onların sağlam böyüməsində idmanın rolu, fiziki tərbiyə dərslərinə qoyulan müasir tələblər, dərslərin əsas xüsusiyyətləri, quruluşu və təşkili formaları ilə bağlı geniş məlumatlar verilir.

Müəllimlərin nəzəri biliklərinin, təcrübə bacarıqlarının artırılması üçün təlimçilər tərəfindən açıq idman qurğuları, idman zalları və futbol meydançalarında əyanilikdən istifadə olunmaqla məşğələlər təşkil edilir. Həmçinin idman avadanlıqlarından səmərəli istifadəyə dair təcrübə mübadiləsi aparılır.

Seminarın proqramına uyğun olaraq təlimçilər tərəfindən fiziki tərbiyə fənni ilə bağlı tədris materialının planlaşdırılması, fiziki tərbiyə prosesində ümumpedaqoji təlim metodlarından istifadə, sinifdənxaric fiziki tərbiyə və idman məşğələlərinin keçirilməsi, idman yarışlarının təşkili haqqında məlumatlar iştirakçılara çatdırılır.

Təhsil Nazirliyinin seminarların gedişinə rəhbərlik edən əməkdaşları tərəfindən gənc nəslin fiziki inkişafında, onların sağlam böyüməlırində idmanın roluna həsr edilmiş məşğələ tədris olunur.

Qeyd edək ki, 17 dekabr tarixdən başlanan seminarlar 28 dekabradək davam edəcəkdir. Şəhər və rayonlar üzrə seminarlar qabaqcıl fiziki tərbiyə müəllimləri tərəfindən aparılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 921